# Mənə qələmini çəkib yaradan



*Xanəli Kərimli*

## SƏN GÖZƏL ÜZ GÖRDÜN, GÖZƏL ÜRƏK YOX...

Məni gözəlliyin gözünə vurma,
Gözəl yaranmışam başdan, binadan.
Gözəl olmasam da sənin gözündə,
Mənə qələmini çəkib yaradan.

Duyar gözəlliyin gözəlliyini
Könlü gözəlliyə dustaq olanlar.
Öpüb gözəlliyi qoyar göz üstə
Təmiz ürəklilər, təmiz qanlılar.

Gözəllik ölçülmür gözəl camalla,
Gözəllik gözəlin əməlindədir.
Gözəllik gözəldir ağıl-kamalla,
Riyasız, boyasız, təmiz dildədir.

Əxlaqı gözəldir, mənliyi safdır,
Əsl gözəlliyin, əsl gözəlin.
Fitnəsi, işvəsi "can alanların"
Başa düşmək olmur əməlin, felin

Sən gözəl üz gördün, gözəl ürək yox,
Çünki gözəllikdən üzaqsan, yazıq.
Əsl gözəlliyi duymaq, duyurmaq
İlahi bir eşqdir, İlahi varlıq.
Üzü gözəllərdən uzaq ol, uzaq,
Qəlbi gözəllərin gəl səcdəsinə.
Aldanma qəmzəli göz yaşlarına,
Vurul təmiz eşqin möcüzəsinə.

**28.12.2018.**

## SƏN VƏTƏN İŞIĞIYDIN

*Müqəddəs işığı heç zaman bitib-tükənməyən, əsrlərdən bəri insanı Insanlığa çağıran Mirişlilər ocağının ruh daşıyıcılarından biri, həkim, ziyalı, hörmətli Adil Mirişliyə ehtiramla*

İnsan da bir işıqdır,
Yaranıb Haqq nurundan.
Bəlkə də, Günəş elə
öz nurunu alıbdır
Insanlığın qorundan.

Günəş göyün İnsanı,
Insan yerin Günəşi,
Məncə, elə bundadır
həyatın da nəşəsi.

Sən də bir işıq idin
Insanlar arasında,
Fərqi yox, yaşasan da
dünyanın harasında.

Yaşının bu çağında-
səksənin qucağında
köç etsən də Vətəndən,
Vətən köçmədi səndən.

Sən Vətəndən köçəndə
elə bilmə Vətəndən
tək özünü apardın...

Sən Vətənin bağrından
elə özün boyda da
odu heç vaxt sönməyən,
məhəbbəti dönməyən.

bir Günəş hərarətli
bütöv Vətən heyrətli
topa işıq qopardın...

...Sən Vətən işığıydın-
O işıqdan od alsın
Qürbətdə od-ocağın.
Əbədi, sönməz olsun
yanar nurlu çırağın!!..

**04.01.2019**

## ÇƏTİNDİ...

Bir dərənin suyunu
ayırma min dərəyə.
Çalış ki, min dərənin
suyunu yığ bir yerə.

Onda dağlar dağı da
diz çökəcək önündə.
Çağlayacaq səadət
ömrünün hər günündə.

Bir damlanın gücündə
yatıb ümman ləngəri.
Ən dərin ümmanda da
var damlanın öz yeri.

Damla-damla böyüyüb
dənizlər olur ümman.
Kainat dediyin də
yaranıbdı damladan.

İnsan da bir kainat-
Böyüyür damla-damla.
Yaşayır bu həyata
Tükənməz bir inamla.

İnsanın böyüklüyü
Onun vüqarındadır.
Nə "şan-şöhrəti" adda,
Nə sərvət, nə vardadır.

Vüqar incə bir şüşə,
Qırılsa, ələ gəlməz.
Nadan min il yaşasa,
Onun dəyərin bilməz.

Cəhənnəm əzabıdır
Ömür sürmək vüqarla.
Çox ağırdır yaşamaq
Namusla, etibarla.
Ancaq yenə təmiz ad,
Namus, qeyrət qalacaq.

Zaman çox "ölməzləri",
"Əbədi sönməzləri"...
Öz taxtından salıbdı,
Öz taxtından salacaq...

Bəlkə də, inanmırsan
Bu həqiqətə indi.
İnamsız yaşamaqsa,
İnsan, sənə çətindir.

## DAĞ ÇAYI

*Məslək dostum, fəlsəfə üzrə fəlsəfə doktoru Sabir Bəşirovun unudulmaz xatirəsinə*

...Bir dağ çayı idin qardaş,
Səni məhbəs kimi sıxan
qayalarla, sərt dağlarla
vuruşaraq, döyüşərək
durulrdun, saflaşırdın
yavaş-yavaş.
Bilirdin ki, yaşamağın,
vuruşmağın, döyüşməyin
hədər deyil,
Bilirdin ki, vuruşlarda,
döyüşlərdə
hərdən məğlub olmağın da
kədər deyil.
İstəmirdin çoxları tək
dəryalara, ümmanlara
qovuşasan,
istəmirdin!..
İstəyirdin öz adınla,
ünvanınla,
keçmişini, bu gününü,
sabahını qoruyaraq
tarix boyu alınaçıq,
başı uca,
qəlbi təmiz yaşayasan.
Çox görmüşdün,
azman-azman dağ çayları
ümmanlara, dəryalara
qovuşanda ölüb gedib,
Böyük-böyük arzuların,
amalların ölümləri
bölüb gedib.
Qalmayıbdı nə adları, nə sanları,
silinibdi ünvanları.
Minillik bir ölü kimi
unudulub olanları.
Sənsə coşub çağlayırdın
öz arzunla, öz yolunla,
qadağalar sədlərini yara-yara
işıq verdin, həyat verdin
neçə-neçə aydınlara,
nurlu, aydın sabahlara...

**15.10.2018.**

## QIŞ GÖZƏLLİYİ

Şaxta ağacların budaqlarında
Qırova bürünüb dalıb yuxuya.
Qarda eşələnən bala sərçələr
Çırpınıb, silkinib dönür yuvaya.

Arabir günəşin soyuq istisi
Qarın çöhrəsini dənələndirir.
Üzünə iynətək sancılan çısək
Yolu, cığırları çiçəkləndirir.

Dumana bürünən dağ yamacları
Doldurub qar ilə qoynun-qoltuğun.
Mürgülü dərələr, oğrun bərələr
Dönüb yatağına qarlı çovğunun.

Meşə talasında yaşıl dağ gölü
Bürünüb min rəngli qış duvağına.
Fidan bulaqların almaz qaş-daşı
Dönüb cığırların çil-çırağına.

Ağacdan ağaca şəfəq süzülür,
Hərəsi bir çalar, rəngə çalırlar.
Bu rənglər şaxtanın buz əlləriylə
Budaqdan budağa naxış salırlar.

Yarpağı silkinmiş boz ağacların
Başında quşların boş yuvaları.
Ağacdan ağaca uçub qonurlar
Meşə sakinləri-meşə quşları.
Dovşan ləpirləri, kəklik izləri
Bənzəyir ağ duvaq üstə naxışa.
Qarı şırımlayan ovçu cığırı
Baş alıb yol gedir üzü yoxuşa.

Buzla sırğalanıb çayın çaylağı,
Sazağın sularda qalıbdı səsi.
Gədikdən boylanan ana maralın
Gözündə çağlayır yazın müjdəsi.

Bir lal sükutu var dağın, dərənin.
Qarın hellənci də sükutu pozmur.
Təkcə zirvələrdə qiylayan qartal
Qışın qışlığının həddinə dözmür.

O hərdən süzərək dumanda, çəndə,
Oyadır ruhunun yaz havasını.
Çarpışır, vuruşur qarla, boranla,
Qoruyur vətəntək öz yuvasını.

... Bu qışın bənzərsiz öz gözəlliyi
Gözəllik içində bir gözəllikdir.
Mənim Vətənimin qış gözəlliyi
Dünyada əvəzsiz, dünyada təkdir.

**23.01.2017.**

## ZAMAN ÖZÜ DEYƏCƏKDİR...

Bu gecəm də uzun çəkdi,
Bir əsrlik gecə oldu.
Bu gecə də hal-əhvalım
təbdən-təbə düşə-düşə
heç bilmədim necə oldu...
Bu gecəm bir gecə oldu
gecələrin sırasında.
Ovutdum bu gecəmi də
gözlərimin qorasında.
Qonağımdır bu gecəm də
min bir xəyal, min bir duyğu,
Hər xəyal da, hər duyğu da
özlüyündə
min cavablı sual-sorğu.
Haqq-hesablı divan oldu
bu gecəm də mənim üçün.
Bu divanda əməllərim
əyan oldu mənə bütün .
Gah müqəssir, suçlu oldum,
Gah da hakim bu divanda.
Sanki bu an yanımdaydı
Yeri-Göyü Yaradan da.
...Bu gecəmin divanında
açdım sabahın gözünü.
Ancaq son söz zamanındır:
Mən kiməmsə, nəçiyəmsə
Zaman özü deyəcəkdir
əbədilik son sözünü!..

**20.10.2018.**

## QƏRİBƏ ADAMLAR, QƏRİB ADAMLAR

Qəribə adamlar, qərib adamlar
Oxşayır talecə bir-birlərinə.
Qəriblər qürbətdə, qəribələrsə
Yaşayır vətəndə qərib yerinə.

Qəribə adamlar, qərib adamlar
Yuvasız quş kimi qalar ayaqda.
Gecəsi gündüzlə düşər qarışıq,
Nə zamana baxar, nə də ki vaxta.

Sanki bu dünyanın adamı deyil,
Yaşarlar su üstə saman çöpü tək.
Taledən, qismətdən əli üzülü,
Bağçası bar verməz, çəməni çiçək.

Qəribə adamlar, qərib adamlar
Onlar yaşamırlar özləri üçün.
Nə riya bilirlər, nə kələk-külək,
Cavabdeh olurlar sözləri üçün.

Bir dərvişsayağı ömür sürürlər.
Nə döyəni döyər, nə də söyəni.
Onlar könülcə də sevib-seçməzlər
Təkəbbürlə gəzib özün öyəni.

Tək könül açarlar Allah eşqinə,
Qazanarlar halal, yeyərlər halal.
Könül bağlamazlar dünya eşqinə,
Haqqa qul olarlar, yalana da lal.

Qəlbimdə qəriblər, qəribələr var,
Onlar can sirdaşım, könül varımdır.
Çoxuna əl tutdum, oldum da sarban...
Onlar son dayağım, etibarımdır.

**26.03.2017**

